CANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# ESPUBLİKA

SPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

№02 (5453) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Azərbaycanın qeyri-neft sektoru dinamik inkişaf edir

*Dövlət başçısı bildirib: “Qeyri-neft sənayesinin 7 faizdən çox artması məni xüsusən sevindirir. Bu onu göstərir ki, əvvəlki illərdə apardığımız siyasət öz bəhrəsini verir”.*

**Dünya bazarında enerji resurslarının qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, Azərbaycanın sosial-iqtisadi inkişafı ilə bağlı 2015-ci ildə qarşıya qoyduğu vəzifələr uğurla icra olundu. Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibəti ilə Azərbaycan xalqına təbrikində dövlətimizin başçısı cənab İlham Əliyev bildirib ki, 2015-ci ildə yaşadığımız regionda iqtisadi, siyasi, hərbi böhran daha da dərinləşdi, risklər artdı, təhlükələr artdı, yeni çağırışlar meydana gəldi: “Bütün bunlara baxmayaraq, Azərbaycan 2015-ci ildə uğurla inkişaf etmişdir. Bizim əsas vəzifəmiz ondan ibarət idi ki, Azərbaycan xalqının təhlükəsiz həyatını təmin edək, ölkəmizin dinamik inkişafına nail olaq. Azərbaycanda ictimai-siyasi sabitlik təmin edildi.**

Azərbaycan xaqlı təhlükəsizlik şəraitində yaşayır və yaşayacaqdır. Eyni zamanda, 2015-ci ildə neftin qiyməti kəskin şəkildə aşağı düşmüşdür, üç dəfə aşağı düşmüşdür. Bunu ilin əvvəlində təsəvvür etmək mümkün deyildi. Ancaq bu, reallıqdır və yenə də Azərbaycanda aparılan düşünülmüş iqtisadi siyasət nəticəsində iqtisadi artım təmin edildi, Azərbaycanda qeyri-neft sektoru inkişaf etdi. Xüsusilə qeyri-neft sənayesinin 7 faizdən çox artması məni xüsusən sevindirir. Bu, onu göstərir ki, əvvəlki illərdə apardığımız siyasət öz bəhrəsini verir. Azərbaycan iqtisadiyyatı dayanıqlı iqtisadiyyatdır və neftdən asılılığımız getdikcə daha da azalacaq”.

Azərbaycan iqtisadiyyatının dinamik inkişafı, iqtisadi və sosial proqramların icrası, qlobal transmilli enerji və nəqliyyat layihələrinin reallaşdırılması 2015-ci ildə də uğurla davam etdirildi. Statistikaya əsasən, bu ilin on bir ayında Azərbaycanda iqtisadi artım 3,1 faiz, ölkə üzrə ümumi daxili məhsul istehsalı 50 milyard dollar təşkil edir. Onu da xüsusi qeyd edək ki, bu artım əsasən qeyri-neft sektorunda əldə olunub. Bu il qeyri-neft iqtisadiyyatı 4 faizdən çox olub və onun iqtisadiyyatda çəkisi 70 faizə çatır. İl ərzində sənaye istehsalı 2,1 faiz, qeyri-neft sənayesi isə 7,7 faiz artıb. Əlavə dəyərin 33,7 faizi sənayedə, 13,7 faizi tikintidə, 9,9 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 5,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 2,0 faizi informasiya və rabitə, 18,7 faizi isə digər sahələrdə istehsal olunub. Məhsula və idxala xalis vergilər ÜDM-in 7,9 faizini təşkil edir. Ümumi daxili məhsulun hər nəfərə düşən həcmində isə artım 1,9 faiz çoxalaraq 5255,5 manata bərabər olub. Qeyri-neft ÜDM-də artım ötən ilin müvafiq dövrünə nisbətən 4 faizdir.

Dövlətin düşünülmüş siyasəti ilə reallaşan strategiya nəticəsində də bu gün Azərbaycan gələcəyə inamla baxan qüdrətli və rifah içində yaşayan ölkə olmaq yolunda sürətlə irəliləyir. Dünyanın aparıcı reytinq agentliklərinin qiymətləndirmələri Azərbaycanın inkişafını bir daha təsdiqləyir. Dünya İqtisadi Forumu tərəfindən tərtib edilən qlobal rəqabət qabiliyyəti indeksi reytinqində Azərbaycan 140 ölkə arasında 40-cı yeri tutur, Fitch beynəlxalq reytinq agentliyi isə ölkəmizin reytinqini sabit proqnozlu BBB səviyyəsində təsdiq edib. Artıq yeddinci ildir ki, ardıcıl olaraq Azərbaycan MDB ölkələri arasında liderdir. Digər tərəfdən, bu yaxınlarda Beynəlxalq Valyuta Fondu 2015-ci il üçün Azərbaycanın iqtisadi artım proqnozunu 4 faiz yüksəldib. Bütövlükdə Azərbaycanda gedən proseslərə də mənfi təsir göstərən əlverişsiz xarici iqtisadi və maliyyə amillərinə baxmayaraq, ölkənin iqtisadiyyatı 2015-ci ildə də öz potensialını və mürəkkəb şəraitdə inkişaf etmək imkanlarını bir daha təsdiqlədi. Təhlilçilərin də qeyd etdiyi kimi, əslində Azərbaycan iqtisadi inkişafının enerji ehtiyatlarından asılılığını real şəkildə azaltmağa nail olub. Bu, çox vacibdir. Azərbaycan neftin qiymətini diktə edənlərin əlində girov olmamaq üçün bundan sonra da iqtisadi islahatlar aparmağı planlaşdırır. Həmin islahatlar nəticəsində qeyri-neft sənayesi, kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları prioritet sahələrə çevriləcək. Neft gəlirlərinin azalmasına təsir edən real vəziyyəti nəzərə alaraq sosial-iqtisadi inkişafla bağlı proqramlara müəyyən düzəlişlər edilməsi planlaşdırılır,— deyən Azərbaycan Prezidentinin köməkçisi Əli Həsənov bildirib ki, söhbət maliyyə intizamının gücləndirilməsindən, prioritet investisiya layihələrinin həyata keçirilməsindən, hökümət tərəfindən aparılan siyasətin sosial yönümünün artırılmasından gedir.

“Kənd təsərrüfatı” ili olan 2015-ci ildə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramına uyğun olaraq, ötən il də müasir quşçuluq və heyvandarlıq komplekslərinin, intensiv bağçılıq və üzümçülük təsərrüfatlarının, logistik mərkəzlərin və taxıl anbarları kompleksinin yaradılması aqrar sektorda dönüşün əldə olunmasına, istehlak bazarının sabitləşməsinə, ixrac potensialının artmasına, idxaldan asılılığın azalmasına, ümumilikdə ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə səbəb oldu. Ölkənin 19 rayonunda 40 min hektardan artıq sahədə 30 iri fermer təsərrüfatının yaradılması əsasən başa çatdırıldı və məhsuldarlıq hər hektardan 58-60 sentner təşkil etdi. Şəmkir və Xaçmaz rayonlarında aqroparklarda birinci mərhələ üzrə işlər başa çatdı. Xızı aqroparkında isə müvafiq layihələndirmə işləri davam etdirildi.



Məhz Azərbaycanda ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə, yoxsulluğun azaldılmasına, əhalinin rifahının yüksəlməsinə daim göstərdiyi diqqətin və şəxsi töhfəsinin nəticəsidir ki, Minilliyin İnkişaf Məqsədlərinə çatmaqda ölkəmizin mühüm irəliləyişlərinə görə dövlətimizin başçısı cənab İlham Əliyev 2015-ci il üzrə BMT-nin “Cənub-Cənub” mükafatı ilə təltif olundu.

Məlumat üçün bildirək ki, 2015-ci ilin yanvar-noyabr ayları üzrə kənd təsərrüfatının ümumi məhsullarının faktiki qiymətlərdə dəyəri 5384,0 milyon manat təşkil etmişdir ki, onun da 2642,5 milyon manatı heyvandarlıq, 2741,5 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür. Belə ki, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsal indeksi 6,7 faiz, o cümlədən bitkiçilik məhsulları üzrə 10,8 faiz, heyvandarlıq məhsulları üzrə isə 2,5 faiz artıb.

Təbii ki, ötən ilin bu statistik məlumatları ölkədə qeyri-neft sektorunun inkişafının və iqtisadiyyatın neftden asılılığının getdikcə daha da azaldığını göstərir. Eyni zamanda ölkənin yaxın gələcəkdə öz ərzaq təhlükəsizliyini tam təmin edə biləcəyinə şərait yaradır.

**Şükür ƏLİZADƏ,**
**“Respublika”.**